Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Məbədin Başçısı İsaya Baş Çəkir

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Sarah S.

Alastair Paterson

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

İsa bir gün məbədə gedəndə O, insanların Allahın evinə hörmətsizlik göstərdiklərini gördü.  Onlar məbəddə heyvan satır və pul dəyişirdilər.



Kəndirlərdən qamçı düzəldərək, İsa alverçiləri məbəddən qovdu.  O əmr etdi: “Bu şeyləri buradan götürün.  Atamın Evini bazara döndərməyin”. İsa Öz Atasının Evini sevirdi.





Rəhbərlər İsanın məbədi təmizləməyə hüququ olduğunu göstərməyə əlamət tələb etdilər. İsa cavab verdi: “Bu məbədi dağıdın və Mən üç gündə onu yenidən quracağam”. Mümkün deyil! Bu məbəd qırx altı ilə tikildi.

Lakin İsa Öz bədəni haqqında danışırdı.  Məbəd kimi, Onun bədəni Allahın yaşadığı yer idi. İsanın çarmıxda öləcəyinə baxmayaraq, O, Allahın Onu üçüncü gündə ölülər arasından dirildəcəyini bilirdi.





Axşam məbəd rəhbərlərindən biri İsaya baş çəkdi. İsanın etdiyi möcüzələrə görə Onun Allah tərəfindən göndərildiyini bilirdi. Nikodim Allah haqqında daha çox öyrənmək üçün İsanın yanına gəldi.



İsa Nikodimə dedi ki, insanlar Allahın Padşahlığına girmək üçün yenidən doğulmalıdırlar. Yaşa dolmuş adam yenidən necə körpə ola bilər?  Bundan əlavə, o, dindar adam idi.  Bu kifayət deyildi?



İsa izah etdi: “Ruhdan doğulan ruhdur. Allahın Ruhu külək kimidir. İnsanlar küləyi nə görür, nə də ki, başa düşürlər. Onlar yalnız küləyin etdiyi şeyləri görürlər”.



İsa Nikodimə İsrail övladlarının uzun illər Musaya deyindiklərini xatırlatdı. Onlar qışqırırdılar: “Bizim yeməyimiz, suyumuz yoxdur və biz Allahın bizə verdiyi çörəyə nifrət edirik”.

İnsanların günahları Allahı qəzəbləndirdi.  O, onların arasına zəhərli ilanlar göndərdi.  İlanlar insanları sancdı.  Çoxları öldü.



“Biz günah işlətmişik”.  İnsanlar yalvardılar: “Dua et ki, Rəbb bu ilanları götürsün”.  Beləliklə, Musa dua etdi.  Lakin Allah ilanları götürmədi.





Allah Musaya tuncdan ilan düzəltməyi və onu dəyənəyin üzərinə qoymağı əmr etdi.  Allah söz verdi: “İlan sancan hər bir kəs dəyənəyin üstündəki ilana baxanda yaşayacaq”.  Musa tuncdan ilan düzəltdi və ona baxan hər bir kəs sağaldı.


İsa Nikodimə dedi ki,
Bəşər Oğlu da tunc ilan
kimi yuxarı qaldırılmalıdır.
İsa günahkarlara görə
çarmıxda öləcəyi
barədə danışdı.


İsa dedi: “Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun”.


Bu o deməkdir ki,
İsaya inanan hər
bir kəs Allahın
ailəsinə
doğulur.

Bəlkə Nikodim həmin gecə İsanın şagirdi olmadı.  Lakin illər sonra Nikodim çarmıxa çəkilmiş Allahın Oğlunu dəfn etməyə kömək etməklə İsanı sevdiyini və Ona inandığını göstərdi.



Bundan sonra İsa və Onun şagirdləri şimala doğru səyahət etməyə yola düşdülər.  Başqa insanlar da Allahın Padşahlığı haqqında eşitməli və Nazaretli İsaya, Allahın Oğluna inanmaq şansına malik olmalı idilər.



# Məbədin Başçısı İsaya Baş Çəkir

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yəhya 2-3, Saylar 21

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**